## Problem

**Son günlərdə kütləvi informasiya vasitələrində Binəqədi rayonu, Xocasən qəsəbəsində yaşayan ananın 6 yaşlı oğlunun və 14 yaşlı qızının ögey qardaşı və onun həyat yoldaşı tərəfindən zorakılığa məruz qalması barəsində məlumatlar yayılıb. Dünən isə, Ağstafa şəhəri ərazisində 2 azyaşlı uşağa qarşı zorakı hərəkətlər edilməsi barədə məlumatlar tirajlandı.**





**Psixoloji təsir və hüquqi məsuliyyət**

# Uşaqlara qarşı zorakılıq

Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Gəncə şəhər sakini Həsənova Zəminə Valeh qızının nəvələrinin zorakılığa məruz qalmasına dair müraciəti əsasında Ağstafa rayon prokurorluğunda araşdırma aparılıb. Araşdırma ilə Mehralıyeva Səadət Həmid qızının müxtəlif vaxtlarda 2013 və 2014-cü il təvəllüdlü ögey övladlarına mütamadi olaraq döyməklə və sair zorakı hərəkətlərlə əzab verərək onlara çoxsaylı bədən xəsarətləri yetirməsinə əsaslı şübhələr müəyyən edilib.

Bu əməllərə səbəb olanların cəzalandırılması balacaların psixoloji olaraq şiddət görməsi həqiqətini dəyişdirmir.

■ **Psixoloq Nərmin Vəliyeva hafta.az-a açıqlamasında söylədi ki, ailələrdə ögey fərdlər tərəfindən zorakılıq halları çox sıx qarşılaşılan bir məqamdır. Bu gün əksər hallarda yenidən ailə quran şəxslər azyaşlıların fikrini önəmsəmir, yaxud ümumiyyətlə buna ehtiyac görmürlər:**

"Evə gətirilən yeni həyat yoldaşı uşaq üçün onsuz da ayrıca bir travmadır. Uşaqların özlərinə yad hiss etdikləri ailə fərdlərinə qarşı aqressiv davranışları, yaxud normal dəcəllikləri ailədən şiddət görmələrinə səbəb olur. Bəzən isə balacalar şüuraltı olaraq ətrafdan intiqam almaq üçün davranış pozuntuları edirlər. Ailələr isə doğru davranmağı bilmədikləri üçün uşağa psixi, yaxud fiziki şiddət göstərirlər".

Psixoloqun fikrincə, balacaların özlərini ən rahat və güvəndə hiss etdikləri yer evləri və ailə üzvlərinin yanıdır. Əgər uşaqlar güvəndiyi insanlar tərəfindən şiddətə məruz qalırlarsa, onların dəyər duyğusu zərər görür. İrəliləyən illərdə isə bu onların sosial həyatlarına böyük ziyanlar verir:

"Uşaqlar "eşitsəl" deyil, "görsəl" tərbiyə olunurlar. Əgər bir uşaq səhv etdiyi zaman şiddət görürsə, onun gələcəkdə şiddət göstərən fərdə çevrilmə ehtimalı böyükdür. Doğma valideyn şiddətə göz yumursa, uşaqların travması daha böyük olur. Uşaqların gələcəkdə depressiya, təşviş pozuntusu qrupuna aid olan bir çox psixoloji problemlər yaşaması qaçılmazdır. Belə ailələrə uşaqları nəzərə almağı tövsiyə etmək düzgün olmazdı. Ailələr onsuz da belə halları normal qəbul edirlər. Yaxşı olardı ki, ətrafdakı insanlar tərəfindən uşaqlar terapiyaya cəlb edilsin. Beləcə, həm də bu, balacaların gələcəyini xilas etmiş olur.

> “
>
> *Bu gün əksər hallarda yenidən ailə quran şəxslər azyaşlıların fikrini önəmsəmir, yaxud ümumiyyətlə buna ehtiyac görmürlər*
>
> --------------------
>
> *Bu kimi hallarla bağlı işgəncə və zorakılıq faktları öz təsdiqini taparsa, təqsirləndirilən şəxslər əksər hallarda məsuliyyətdən yaxa qurtara bilmirlər*
>
> --------------------

■ **Problemin psixoloji tərəflərinə aydınlıq gətirdik, indi isə qaldı hüquq müstəvisi. Bu aspektdə yaranmış suallarımıza vəkil Turan Abdullazadə cavab verdi. O bidirdi ki, bu kimi hallarla bağlı işgəncə və zorakılıq faktları öz təsdiqini taparsa, təqsirləndirilən şəxslər əksər hallarda məsuliyyətdən yaxa qurtara bilmirlər:**

"Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən cinayətin təqsirkar üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın, habelə azyaşlı, qoca və ya köməksiz vəziyyətdə olan və ya təqsirkardan asılı vəziyyətdə olan şəxsə qarşı törədilməsi cinayəti ağırlaşdıran hallardan biridir. Həmçinin Cinayət qanunvericiliyinə əsasən qəsdən sağlamlığa ağır zərər vurma - üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə, qəsdən sağlamlığa az ağır zərər vurma-iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə, qəsdən sağlamlığa yüngül zərər vurma isə - min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".

Vəkil onu da söylədi ki, bu cür faktlarla bağlı hüquq-mühafizə orqanlarına şikayətlər daxil olduğu təqdirdə bu kimi işlərdə bədən xəsarətlərinin müəyyən olunması üçün istər istintaq, istər məhkəmə prosesi mərhələsində tibbi-ekspertiza təyin olunur:

Əgər ekspertizanın keçirilməsi nəticəsində azyaşlılar üzərində ağır, az ağır və ya yüngül bədən xəsarətləri müəyyən olunarsa, verilmiş ekspert rəyi məhkəmədə zərərçəkmişlərin leyhinə sübut kimi istifadə olunur. Bədən xəsarətlərinin dərəcəsini nəzərə almaqla təqsir sübuta yetirilərsə, hakim təqsirləndirilən şəxs barəsində ittiham hökmü çıxarır və ona cəza təyin edir".

*Banu*